

# Bağlı qapı açaram...

## Şair-publisist, küllü-Qarabağın sevimlisi Əli Mahmudun söz xalçasından butalar

*Vaqif Bəhmənlinin təqdimatında*

**Mən içərisinə nə az, nə çox, yetmiş sual yazılmış qeyd dəftərini (əslində, babat qalınlığı olan bloknotu) götürüb açmağı düşünəndə və Əli müəllimi "sovet jurnalistləri" demişkən, "sual yağışına tutmaq" istəyəndə bizi həyətə gətirən "Hyuindai" markalı qara maşın iyirmi dəqiqə olardı ki, çıxıb getmişdi. Yaxşı, bəs "Hyuindai" maşının mənim yaddaş dəftərimə nə dəxli? Məsələ burasındadır ki, mən məhz babat qalınlığı olan o bloknotun arasını kəmali-ədəblə aralayıb, orada sıralanan 70 sualı bircə-bircə Əli müəllimə verməli və cavab almalı idim. İndi isə... bax həmin o dəftər bardaçokda qalmışdı, yəni bizi bağa gətirən qara "Hyuindai"nin bardaçokunda qalmışdı, o da bizi bağa düşürdəndən sonra dərhal çıxıb getmişdi...**

### *Bir dəfə*

60 yaşı ilə əlaqədar "XXI Gənclik dərgisi"nə yazı hazırlamaq üçün o zamanlar, elə indi də çox sevdiyim şair adaşımla, daha doğrusu, Vaqif Səmədoğluyla görüşərkən, o mənə belə demişdi: bilirsən, adaş, indi mənim elə yaşımdır ki, əlimdə qələm olmadan düşünməyə ixtiyarım yoxdur. Söz xoşuma gəlmişdi. Yadımdadı, Vaqif müəllim bu kəlmələri söyləyəndə zəndlə üzümə baxırdı, sanki bilmək istəyirdi görsün, qarşısında əyləşib ona suallar verməyə hazırlasan digər Vaqifin qələmsiz düşünmək şansı tükənib, yoxsa hələ qalır...

***Əlbəttə, Əli müəllimi o dərəcədə ətraflı tanıyıram ki, onunla saatlarca qələmsiz sinə söhbəti eləyə bilərəm. Yəni bədahətən nələrisə soruşa, bədahətən cavablar ala və bədahətən də dostumun dilindən çıxan hər bir kəlməni yaddaşımın bir küncündə saxlamağa gücüm yetər. Digər bir tərəfdən, çox şükür ki, indi, bizim zəmanəmizdə əl telefonlarının muncuq-muncuq xırda, qara gözlərindən sərçə də yayına bilməz, bu başabəla cihazcıqlar səsi səs kimi, görüntünü surət kimi sinəsinə köçürür!..***

İntizamlı müxbir düşüncəsini başımdan çıxarmaqdan ayrı bir yolum qalmırdı. Yanvarın ortası, bu çovğun-qiyamətdə ordan durub bura gəlmişik, "Hyuindai" isə bizi geri aparmağa, aşağı-yuxarı, altı-yeddi saatdan sonra qayıdacaq.

Əli müəllim dəftərçənin "Hyuindai"də getməsinə yüngülcə təəssüfləndi. Baş verən arzuolunmaz olaya görə, əlbəttə, Əli müəllim bir az daha artıq təlaş keçirməsinə dəyərdi. Amma mən, ayrı illəri qoyuram bir qırağa, yalnız 1987-1993-cü illərdə əsl cəhənnəm həyatı yaşayan bu adamın səbrinin və müdrik susqunluğunun miqyasına da bələdəm...

Vaqif Səmədoğlu ilə söhbətim 1999-cu ildə olmuşdu, indi, bu gün bir qədər keçəcək və mən əmin olacağam ki, nəinki qələmsiz, hətta bloknotsuz düşünmək şansım 21 ildən sonra da qalır!

Kondisioneri işə salıram. Qazı yandırıb ağzınacan suyla doldurduğum çaydanı göyümtül od dilimləri oynaşan piltənin üstünə qoyuram. Mətbəxin qarşısındakı, bizim əyləşib elə buradaca söhbətləşmək qərarına gəldiyimiz otaq xeyli iridi, yəqin istiləşməyi bir qədər çəkər, Əli müəllim qalın gödəkçəsinin düymələrini açsa da onu soyunmağa tələsmir:

**- Otaq soyuqdu, - deyir,- qoy yaxşı isinsin, palto-papaq məsələsinə bir azdan baxarıq.**

Üzbəüz əyləşirik. O, istiqanlılıq, mərhəmət yuvasına bənzər gözlərini üzümə zilləyib. Yəni, mən hazır, buyur, sualların ver.

### *Əli Mahmud*

həmən o şəxsdir ki, hər dəfə onu görəndə (və məncə, istisnasız olaraq) xəyal məni 1975-ci ilə, yəni burada üzbəüz əyləşdiyimiz gündən 45 il əvvələ aparır. Həm də xəyal məni bir başqa yerə yox, məhz ora, Şuşaya aparır. Avqust ayının axırlarına...

O zamanlara ki, ocağımızın başına keçirtdiyimiz məkrli-maskalı düşmən "miatsum" deyə bağıra-bağıra küllü-Qarabağı qan gölünə döndərmək, məhz müsəlman-türk olduqlarına görə bütün Qərbi Azərbaycan boyunca dədə-babalarımızın məskunlaşdığı torpaqları soydaşlarımıza olmazın işgəncə verərək boşaltdırıb xaraba qoymaq, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Şuşa, Ağdam, Füzuli və ümumən Dağlıq Qarabağ deyilən muxtar vilayətin torpaqlarını işğal altına almaq niyyətlərini hələ örtülü qazanda qaynadırdı. O zamanlara ki, hələ Azərbaycan Respublikasının ərazisinin 20 faizi zəbt edilməmişdi, tapdaq altına düşməmişdi. Qarabağ uğrunda döyüşlərdə, ümumiyyətlə, ölkəmizdə hökm sürən müharibə, işgəncəli qaçqınlıq-köçkünlük durumu ilə ələqədar 1 milyon 250 min azərbaycanlı yurd-yuvasından didərgin düşməmişdi, 20 min soydaşımız qanlı müharibədə həyatını itirməmiş, 50 min insan əlil olmamış, 6 mindən çox azərbaycaclının qismətinə itkinlik, əsirlik, girovluq yazılmamışdı..

***Onda bizim ağlımıza da gəlməzdi ki, erməni cəlladlarının beynəlxalq havadarlara arxalanaraq törətdiyi cinayətlər, terrorizm nəticəsində Azərbaycanın Qarabağ regionunun varidatına 300 milyard dollar həcmində ziyan dəyəcək. Onda Şuşa, mənim unudulmaz şəhərim Şuşa dağlar başında şah qəsrində qərar tutan gözəl, qənirsiz bir pəri kimi bütün Azərbaycana əl eləyib: gəlin, mənə yüksəlin, məni sahibsiz qoymayın deyirdi sanki...***

İl o il, günlər o günlər idi. Bəlkə də Şuşa ötən yüzilliklərdə bənzərsiz bir şəhər qismində qüvvətlənərək yetişdiyi keçmiş, şərəfli məqama yenidən qovuşmanın astanasındaydı. 1970-1980-ci illərin birinci yarısında Şuşa yenə də ənənələri qorumaqda, Azərbaycanın dörd bir yanına yaradıcı ruh, estetik motivlər yayan mədəniyyət mərkəzlərindən biri missiyasını yerinə yetirməkdə idi!

Onsuz da hələ otaq soyuqdu, bəlkə elə xəyalımdakı avqusta, xatirimdəki o gözəl Şuşanın sərin istisinə bükülüm bir az... Romantika, nostalji hisslərin doyulmazlığı öz yerində, bizim indi edəcəyimiz söhbətin mükəmməlliyi naminə elə indi taymaut götürüb, güman ki, Əli müəllimin hövsələsinin dözüm göstərəcəyi vaxt aralığında yaddaşımın həmin o dərinlkdəki nöqtəsinə dalmağa daxili bir qərar verirəm...

**Əslində bu barədə nə vaxtsa, tələbə dostum, indi professor, elmlər doktoru Qulu Məhərrəmliyə həsr olunmuş "Səhərin adamı" oçerkində söz salmışdım. İndi isə o xatirata açıq-aşkar ehtiyac yaranıb və elə bu səbəbdən də bu müsahibəyə dolğunluq gətirəcəyini düşündüyüm bəzi məqamları qısaca olaraq bir daha yada salıram.**

Biz Azərbaycan Dövlət Universiteti jurnalistika fakultəsinin üçüncü kursunun üç tələbəsi - Vaqif Bəhmənli, Qulu Məhərrəmli və Çingiz Aslanov, 1975-ci ilin yayında gözəl şair, o zamankı ADU-nun kafedra müdiri Famil Mehdinin rəhbərliyi altında "Şuşa" qəzetinin redaksiyasına təcrübə keçməyə göndərilmişdik. Yay



vaxtı redaksiyada çalışan böyük əksəriyyətin məzuniyyətdə olması səbəbindən biz bu dağlar arasına göydəndüşmə bir təbərrük, bu balaca redaksiyaya, bu solğun rayon qəzetinə Allah-Təalanın lütfü idik ki, gəlib çıxmışdıq bura; redaktor İsrafil Əbilov, redaktor müavini Qaffar müəllim, şöbə müdirləri Ülfət Muxtarov, Elman Elsevər, Şuşa RPK-nin təlimatçısı Ziyəddin Məhərrəmov, makinaçı Tahirə xanım, mehmanxana müdiri Əhəd müəllim, metrampaj Cəlil və digərlərinin hədsiz qayğıkeşliyi aurasında, onlardan bir çoxunun səhərlər ikram etdiyi çaya, pomidor-yumurta çığırtmasına, günortalar sarımsaq qatıqlı yarpaq dolmasına, düyü supuna, hərdən axşamlar kababa-filana qonaq olaola gəlib çıxmışdıq avqustun axırına.

Beş-on günə təcrübə müddəti bitəcəkdi və Çingiz Ağdama, mən Füzuliyə, Qulu Zəngilana yollanacaqdı; yenidən Bakıda dərslərə davam etmək üçün...

***Həmin vaxt, əgər səhv eləmirəmsə, Elman Elsevər deyəsən lap sevinə-sevinə dedi ki, bu gün qəzetin məsul katibi, şair Əli Mahmud məzuniyyətdən qayıdıb işə çıxıb, günorta bir yerdə çörək yeyəcəyik. Babalı yaddaşımın boynuna, deyəsən, belə olmuşdu. Əli müəllimlə iki-üç dəfəlik təmaslarımızdan sonra, praktikant görəvimiz başa çatdı və biz dağlardan arana endik, Şuşadan, Əligildən ayrıldıq.***

25 yaşlı o zamankı Əli müəllimin cazibəsi, onun məxmər kimi yumşaq təbiəti, xeyirxah xisləti heç zaman mənim qəlbimdəki Əli Mahmud adlı işığın nurunu bir zərrə qədər də azaltmağa imkan vermədi. İki-üç il sonra, 1978-ci ildə biz gənc şairlər sırasında Şüvəlan seminarında görüşdük. Əli Mahmudun qulpundan yapışdığı qəhvəyi rəngli, işıldaq, bir qədər də iri əl çantasının görüntüsü indi də gözümün önündədir.

### *İndi deyə bilərəm ki,*

həmin illərdə onunla böyük dostluğumuz başlamışdı. Elə Elman Elsevər, Ələmdar Quluzadə, Ziyəddin Məhərrəmov, İlhami Cəfərsoyla da. Onlar rayondan mənim ünvanıma "Sovet kəndi" qəzetində çap olunmaq üçün məqalələr, oçerklər, şeirlər göndərirdilər. İmkan daxilində hazırlayıb, qəzetin tələbinə uyğun həcmə, formaya salıb çap edirdik. Onların yolu Bakıya düşəndə şəhəri birgə gəzib dolaşır, digər dostlara baş çəkir, ala-babat da vururduq...

Zaman keçəcək, mənim "Kommunist" qəzetində çalışdığım vaxtda, Qarabağın qan çanağına döndüyü ərəfədə Əli Mahmud və digərləri "Topxananın harayı" məqələsini imzalayaraq ölkənin bir nömrəli qəzetinin üstünə göndərəcək, od püskürən sətrlər 500 min nüsxədən çox tirajı olan qəzetdə işıq üzü görəcək və ilk dəfə insanlar Bakıda meydanlara axışmağa başlayacaqdı, Əli Mahmud indi də davam edən ağır Qarabağ sınağından kişi kimi çıxacaqdı, öz simasını, insaniyətini, şair ürəyini, dağ etibarını qoruyub saxlayacaqdı. "Qarabağ", "Qarabağa aparan yol" qəzetlərinin yaradıcılarından və onları yaşadanlardan biri olacaqdı...

### *Hər zaman olduğu kimi*

biz yenə də sadə şəkildə, iki qardaş olaraq görüşə bilərdik. Bəs yaxşı indi Əli ilə söhbətləşib onun dediklərini bir yazı halına gətirmək istəyi haradan qaynaqlanırdı, buna bir zərurət vardımı? Axı deyəsən o, Qarabağ mövzusunda lazım olduğundan da artıq yazıb?! Amma, bu dünyada səbəbsiz olan nə var ki? Səbəblər isə müxtəlifdir; bu təvazökar, gözəl şairin, qüdrətli, inadkar publisistin ötən il 70 yaşı tamama yetmişdi, düzü, mən bundan xəbər tutmamışdım. Onun ətrafındakı mətbuat, qələm adamları da sanki susmuşdular.

Bir azdan Əli deyəndə ki, o vədələr yaş kağızında yanlışlıq olub, bir yaş böyük yazıblar, 70 yaşım da bu ilə düşür, əməllibaşlı sevinəcəkdim. Deməli, söhbətimiz yerinə düşürdü. Şəxsən məni bu söhbətə cəzb edən digər səbəb isə, heç şübhəsiz, Əli müəllimin hər zaman sözün tam mənasında maraqlı həmsöhbət olması, onun danışığındakı şəhdi-şirə, kolorit, müdrik çalarlar idi.

Ən ümdə məsələ isə ondan ibarətdir ki, 1992-ci ilə qədər qədim-qayım Qarabağ torpağını qarış-qarış, ev-ev, kənd-kənd, şəhər-şəhər, dərə-dərə, dağ-dağ gəzib dolaşan dostum oraların "hər daş altında yatan tarixini" əzbər bilirdi və heç bir vəchlə unutmurdu.

***İndi budur, yəqin oxucu da bu fikrə şərik çıxar ki, bütün bunları, onun coxdan Qarabağ anlayışının bir parçasına çevrilmiş yetmiş illik həyat hekayətlərini təkrar-təkrar dinləyib kağıza köçürmək o yerlərin darda olduğu, oralı insanların pərən-pərən düşdüyü bir vaxtda ən azı, bir vətəndaş, bir qələm borcudur. Onun danışıb-demək, mənim kağıza köçürmək borcum... Bəli, hələ ki, Qarabağ dağıranıynan qəsbkar tapdağı altındadır. Amma mənim içimdə möhkəm və sarsılmaz inam var ki, biz o torpaqları geri qaytaracağıq, yəni biz o yerlərə dönəcəyik! Başqa cür necə ola bilər axı? Amma hansı ovqatla? Mənəvi sərvətimizin, Qarabağ insanına məxsus tanınma nişanlarının hansılarını qoruyub, hansılarını itirərək qayıdacağıq? Qarabağ yalnız torpaq, ərazi, məkan deyil axı, heç yalnız zaman da deyil, heç yalnız hava da deyil. Qarabağ anlayışını bütövləşdirən yeganə faktor varsa, o da insandır, Qarabağlı koloritidir, onun daşıyıcısı bir başqası deyil, QARABAĞLIDIR!***

**(ardı növbəti sayımızda)**